Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Əbədiyaşar bəstəkar – Müslüm Maqomayev

**Müslüm Maqomayevin yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2019**

**Tərtibçilər:** **Elnur Abiyev**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Əbədiyaşar bəstəkar – Müslüm Maqomayev:** Müslüm Maqomayevin yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası ; tərt.ed. E. Abiyev ; ixt.red. və burax.məsul Ş. Qəmbərova ; red. K. Ağazadə. - Bakı : F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2019. - 19 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

## Tərtibçidən

Görkəmli bəstəkar, dirijor, ictimai xadim Müslüm Məhəmməd oğlu Maqomayev Azərbaycan professional musiqisinin klassikidir. Sənətkarın musiqi tariximizdə müstəsna yeri, opera, simfonik musiqi, kütləvi mahnı janrının yaranması və inkişafı sahəsində misilsiz rolu var. O, həmçinin kino və dramatik teatr üçün ilk musiqi yazan bəstəkarlardan biri olmuşdur. Onun operaları, simfonik əsərləri, mahnılar, kino və dram teatrı üçün musiqisi milli bədii irsimizin parlaq səhifəsidir. Dahi bəstəkar Ü.Hacıbəyli ilə bərabər M.Maqomayev professional musiqiyə XX əsrin əvvəllərində, incəsənətin, o cümlədən musiqi teatrının aktiv inkişaf dövründə gəlmişdir. Bəstəkar ömrünün 30 ildən çoxunu Azərbaycan musiqi sənətinin inkişafına həsr etmişdir. Müslüm Maqomayevin Azərbaycan musiqisinin tarixi konteksindəki rolunu müəyyənləşdirərək biz, adətən "Azərbaycan bəstəkarlıq məktəbinin banilərindən biri", "Üzeyir Hacıbəyovun silahdaşı, həmkarı, məslək dostu" kimi ənənəvi formullardan istifadə edirik. Həmin formullar həqiqi olsalar da, Maqomayevin yaradıcılıq axtarışlarının özünəməxsusluğunu, bəstəkarın dəst-xəttinin orjinallığını bir qədər kölgədə qoyur. O, həmçinin azərbaycanlı şairlərin şeirlərinə əsaslanan bir çox vokal əsərlərin müəllifidir.

Maqomaevin "Nərgiz" operası klassik musiqi və səhnə forması üzərində qurulan ilk Azərbaycan operası sayılır. Maqomayev və Hacıbəyovun əvvəlki operaları müəyyən dərəcədə muğamdır. Maqomayev geniş kütlə arasında yayılmış mahnıların ilk müəlliflərindən biridir. Maqomayev Çeçen, Azərbaycan və digər Qafqaz folklorunun toplanması və

sistemləşdirilməsi ilə məşğul olmuşdur. O, Azərbaycan folkloruna xüsusi diqqət yetirmişdir. Üç yüzdən artıq Azərbaycan xalq mahnı və rəqsinə simfonik işlənməsi Maqomayeva aiddir, bəziləri 1927-ci ildə "Azərbaycan Xalq Mahnıları" yığmada dərc edilmişdir. Yığmada Maqomayev və Hacıbəyovun həm də xalqın əsərləri daxildir. Müslüm Maqomayevin yubileyi münasibətilə hazırladığımız metodik vəsait II bölmədən ibarətdir. I bölmədə Müslüm Maqomayevin "Həyat və yaradıcılığı"dan, II bölmədə isə "Keçiriləcək tədbirlər" bəhs edilir.

## Həyat və yaradıcılığı

Əbdül Müslüm Məhəmməd oğlu Maqomayev 1885-ci il sentyabrın 18-də Qroznı şəhərində mədəniyyəti və proqressiv düşüncələri ilə fərqlənən sadə və zəhmətkeş silah dəmirçisinin ailəsində anadan olmuşdur. Onun həyat yoldaşı Baydıgül Terequlova idi. Maqomayevlərin ailə məclislərində çox zaman həvəskar teatr tamaşaları da oynanılırdı. Bu tamaşalarda musiqiyə böyük yer verilirdi. Parlaq musiqi qabiliyyətinə malik olan Müslümün böyük qardaşı Məhəmməd qarmon və fleyta alətlərində mükəmməl ifa edirdi, rəsm çəkirdi. Musiqi qabiliyyətinə uşaqlıq illərindən malik olan Müslüm erkən yaşından şərq qarmonunda çalmağı öyrənmişdi və bu alətdə xalq mahnılarını böyük həvəslə ifa edirdi.

Müslüm ilk təhsilini Qroznı şəhər məktəbində almışdı. Məktəbi müvəffəqiyyətlə bitirəndən sonra, 1900-cü ildə Qori Müəllimlər Seminariyasına daxil olur. Elə burada tale eyni ildə və gündə anadan olan iki gənci Üzeyir Hacıbəyli və Müslüm Maqomayevi qarşılaşdırdı. Onların əqidə birliyi, nümunəvi dostluğu Müslüm Maqomayevin ömrünün sonuna qədər davam etdi.

Seminariya illərində M.Maqomayev Azərbaycan xalq mahnılarının gözəl melodikliyini, rəqsləri, muğamat və aşıq musiqisinin dəyərini dərk edərək Azərbaycan folklorunu dərindən öyrənməyə başladı. Onun tələbəlik illərində nota köçürdüyü xalq musiqisi işləmələri diploma layiq görülmüşdü. Müslümün ilk bəstəkar yazıları da həmin vaxtda başlamışdı. Seminariyani bitirəndən sonra Müslüm öncə təyinatı Şimalı Qafqazın Bekoviç kəndinə alır, sonra isə Azərbaycanda çalışmaq arzusu ilə 1905-ci ildə Lənkəran şəhərinə gəlir.

Burada yaşayan müasirlərin dediyinə görə, o, Lənkəranın mədəni həyatında böyük bir canlanma etmişdi. Ü.Hacıbəyli bu barədə belə yazırdı: "Gənc müəllim böyük təşəbbüs göstərərək müxtəlif özfəaliyyət dərnəkləri yaradır, bütün vaxtını sevimli sənəti olan musiqinin təbliğinə verir".

Altı il pedaqoji işini Lənkəranda tamamlayan Müslüm Maqomayev öz arzusuna çatır, Bakıya gəlir və Sabunçu məktəblərinin birində müəllimliyə başlayır. Bakıya köçəndən sonra M.Maqomayev Azərbaycan musiqili teatrının fəalları sırasına daxil olur. Bəstəkar opera teatrında iş fəaliyyətini orkestrda skripka alətində çalmaqla başlamışdır. 1912-ci ildə Ü.Hacıbəylinin "Əsli və Kərəm" operasında Müslümün əvvəlcə dirijor kimi debütü olmuşdu. Məlum olduğu üzrə Azərbaycan teatrının qurucuları çox çətin və acınacaqlı yol keçmişdi. Azərbaycan musiqili teatrının əsasının qoyulmasında Ü.Hacıbəylinin böyük əməyi var idi. O, öz ətrafına Müslüm Maqomayev daxil olmaqla bir çox həmfikirlərini toplamışdı. Öncə Azərbaycan musiqili teatrının təşkilatçısı və dirijoru kimi başlayan M.Maqomayev opera repertuarını yaratmaq uğrunda mübarizə aparır. O, "Şah İsmayıl" operasını 1913-cü ildə başlamışdı. Ü.Hacıbəylinin yaradıcılıq təcrübəsinə əsaslanaraq Maqomayev özünün ən gözəl və xalq arasında çox populyar olan operasını yaradır. Operanın premyerası 7 mart 1919-cu ildə uğurla keçdi. Əsərin böyük uğuruna səbəb İsmayıl şah rolunda görkəmli aktyor Hüseynqulu Sarabskinin yaratdığı obraz olmuşdu. Operanın librettosunun ilk variantının müəllifi M.K.İsmayılzadə olmuşdu. Lakin librettoda dramaturji nöqsanlar olduğu üçün Maqomayev özü librettoda bir çox düzəlişlər etmişdi. Beləliklə, Ü.Hacıbəylinin və

M.Maqomayev aktiv fəaliyyəti nəticəsində Azərbaycan musiqi və teatr sahəsində yeni mərhələ başlanır.

Dahi Üzeyir Hacıbəyovun müasiri, məsləkdaşı olan Maqomayev onun nəhəng şəxsiyyətinin təsiri altına düşərək Hacıbəyovun bir "dublyoruna", onun yaradıcı prinsiplərini sadəcə təkrarlayan epiqonçuya çevrilə bilərdi. Lakin bu baş vermədi. Maqomayevin musiqisi orjinal, dərhal tanınan və Hacıbəyovdan fərqli olan intonasiya ilə seçilir. Bu fərq iki sənətkarın əsərlərinin artıq empirik qavrama prosesində duyulur. Hacıbəyov dünyası obyektiv, müdrik, təmkinli və ahəngdardır; Maqomayev isə mahiyyətcə subyektivdir, kəskin emosianallığa, romantik-effektli ifadə tərzinə malikdir.

1920-ci ildə Maqomayev Azərbaycan SSR Təhsil İşçilər Birliyinin sədri seçilir. O, 1921-ci ildə Maqomayev Azərbaycan Xalq Təhsili Komissarlığının incəsənət şöbəsinin müdiri vəzifəsinə təyin edilir. Sonra Azərbaycan Dram Teatrının bədii rəhbəri, Azərbaycan Dövlət Opera və Balet Teatrının baş dirijoru vəzifəsində çalışıb. 1929-cu ildə Maqomayev Azərbaycan Radio Komitəsində musiqi şöbəsinin rəhbəri vəzifəsində işləyib və bu vəzifədə 1931-ci ilə qədər qalıb. Müslüm Maqomayev Azərbaycan musiqisində Apropa janrlarının mənimsənilməsində mühüm rol oynamışdır. O, Hacıbəyovun yaradıcı ideyalarına istinad edərək bu prosesi sanki sürətləndirmişdir. Maqomayev klassik musiqinin təbliğinə də xüsusi fikir verirdi. O, dinləyiciləri radio vasitəsilə dünya klassikası ilə tanış etməyi özünə borc bilirdi. İnstrumental ansamblların radioda təbliği Azərbaycan xalq çalğı orkestrinin yaranmasına təkan vermişdi. 1932-ci ilə qədər ifaçılar notsuz çalırdılar. Radioda notlu orkestrin yaranması Ü.Hacıbəylinin adı ilə bağlıdır. M.Maqomayev bu işdə ona

kömək edirdi və orkestri qısa zamanda professional səviyyəyə qaldırdı. Həmin vaxt M.Maqomayev Azərbaycan musiqi folklorunun toplanması məsələsinə də böyük diqqət ayırırdı. 1927-ci ildə onun redaktəsi altında "Azərbaycan türk xalq mahnıları" toplusu çap olunur. Məcmuəyə Ü.Hacıbəyli, Z.Hacıbəyli, M.Maqomayev tərəfindən toplanan mahnılar daxil edilmişdi.

Müslüm Maqomayev Azərbaycanda kütləvi mahnı janrının ilk müəlliflərindən biri olub. Bu mahnılar içərisində "Mazut ordusu", "Neft", "Bizim Kənd", "Aprel", "Yarış", "Komsomolçu" və başqalarını qeyd edə bilərik.

O, 1920-1930-cu illərdə "Azərbaycan incəsənəti", "Raport veririk" kinofilmlərinə, Cəlil Məmmədquluzadənin "Ölülər", Cəfər Cabbarlının "1905-ci ildə" dram tamaşalarına və digər əsərlərə musiqi bəstələmişdir. Bəstəkar, həmçinin simfonik orkestr üçün "Azərbaycan çöllərində", "Ceyran", "Turacı", "Şüştər dəramədi", "Çeçen rəqsi" və s. yazmışdır. O, vokal musiqisi sahəsində də öz fəaliyyətini davam etdirirdi. "Bahar", "Tarla", "Bizim kənd" mahnıları milli koloriti ilə diqqəti cəlb edir. 1932-ci ildə "Koroğlu" dastanı hekayəsinə əsasən opera yazmağa başlamışdı, lakin Hacıbəyovun eyni mövzuda əsər yazdığını öyrənmiş və dostunun daha yaxşı bir opera yazacağını düşünərək, layihələri ləğv etmişdir.

Müslüm Maqomayev yaradıcılığının ən yüksək zirvəsini onun "Nərgiz" operası təşkil edir. Bəstəkar opera üzərində 1932-1935-ci illərdə işləmişdir. "Nərgiz" operası Azərbaycan musiqisinin inkişafı tarixində mühüm yer tutur. Maqomayev hesab edirdi ki, improvizasiya üsulundan uzaqlaşmaq operanın melodik quruluşunda milli musiqi nümunələrinə müraciət etmək və operada çoxsəsli xora üstünlük vermək lazımdır.

"Nərgiz" operasının tamamlanması ilə əlaqədar olaraq, bəstəkar "Azərbaycan SSR Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Bəstəkar başqa janrlı əsərlər üzərində də fəal çalışırdı. Bəstəkarın arxivində “Xoruz bəy” musiqili komediyası, Azərbaycan kəndinin sinfi mübarizəsini nümayiş etdirən “Dəli Muxtar” baletinin eskizləri var.

1995-ci ildə Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlərini nəzərə alaraq Müslüm Maqomayevin anadan olmasının 110 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam vermişdir. Sərəncama əsasən görkəmli Azərbaycan bəstəkarı Müslüm Maqomayevin anadan olmasının 110 illik yubileyi dövlət səviyyəsində keçirilmişdir.

Müslüm Maqomayev uzun sürən xəstəlikdən sonra 1937-ci il, iyulun 28-də Nalçikdə vəfat edib. Bakıda Fəxri xiyabanda dəfn olunub.

## Yubiley tədbirlərinin keçirilməsi

Dünya şöhrətli bəstəkar, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim Müslüm Maqomayevin yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, ədəbi-bədii gecə keçirilə bilər. Bəstəkarı sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə daha da yaxşı şəkildə tanıtmaq məqsədilə kitabxanada ilk növbədə müxtəlif başlıqlar altında kitab sərgisi təşkil olunmalıdır. “Musiqi dünyası”, “Əbədiyaşar bəstəkar – Müslüm Maqomayev”, “Azərbaycan xalqının görkəmli bəstəkarı – Müslüm Maqomayev”, “Dünya şöhrətli bəstəkar – Müslüm Maqomayev” və s.

## Görkəmli şəxsiyyətlər Müslüm Maqomayev haqqında

Şah İsmayıl" operasının əhəmiyyəti təkcə sənət əsəri olmaqla bitmir. Müslüm Maqomayev bu mövzuya sadəcə olaraq bəstəkar, incəsənət xadimi kimi deyil, Azərbaycanın tarixini gözəl bilən bir insan kimi müraciət etmişdir. Axı Şah İsmayıl görkəmli sərkərdə, Azərbaycan şahı olmuşdur. O dövrdə tarixi keçmişimizdən kimin kim olduğunu söyləmək bizim üçün çətin idi. İndi isə açıq deməyə imkanımız var ki, Şah İsmayıl görkəmli dövlət xadimi, siyasi şəxsiyyət, Azərbaycanı birləşdirən insandır. Azərbaycanın qədim dövlətçiliyi Şah İsmayılın adı ilə bağlıdır. Müslüm Maqomayevin də bu mövzuya müraciət edərək belə gözəl opera yazmasının incəsənət üçün əhəmiyyəti böyükdür, həmçinin böyük tarixi, siyasi əhəmiyyəti var.

**Heydər Əliyev,**
*ümummilli lider*

Bəşər tarixində elə şəxsiyyətlər var ki, onlar tək özləri üçün yox, bütün xalqın, bəlkə də bütün bəşəriyyətin xoşbəxtliyi naminə həyata gəliblər. Belə insanlar xalqa nəinki sağlığında, hətta ölümündən sonra da xeyir gətirirlər. Müslüm Maqomayev əsl realist xalq bəstəkarı idi, Azərbaycan musiqi incəsənəti yolunda duran bütün sədləri amansızcasına vurub dağıdan cəsarətli novator idi.

**Üzeyir Hacıbəyli,**
*musiqişünas alim*

Musiqi tariximizin görkəmli xadimi mövqeyində dayanan Müslüm Maqomayev bəstəkar, dirijor, şəxsiyyət, fərd, insan kimi - yaşadığı illərin, dövrün məhsuludur, bəhrəsidir. Həm də bu dövr - uçurumla aralanmış iki parçaya bölünüb - inqilabdan əvvəlki və sonrakı illər. Müslüm Maqomayev ömrünün inqilabdan qabaqkı səhifələri - Qori seminariyası, Üzeyir Hacıbəyovla tanışlıq, dostluq. Əyalətdə müəllimlik, Bakıya

gəlib qəti surətdə musiqi aləminə daxil olması, dirijorluq fəaliyyəti və nəhayət, bir bəstəkar kimi başıbəlalı debütü - “Şah İsmayıl”. “Şah İsmayıl”ın daşdan çıxan, daha doğrusu, yanğının odundan-alovundan çıxan, sonralarsa Ərəblinskinin ölüm günüylə qovuşan premyerası... İkinci dövr - inqilabdan sonrakı ruh yüksəkliyi, yeni mədəniyyətin çətin və fərəhli quruculuğu, bu quruculuğun sevinci, həvəsi və əyintiləri, ifratları, acıları-ağrıları.

**Anar,**
*Xalq yazıçısı*

Müslüm Maqomayev. Belə bir bəstəçimiz, belə bir dirijorumuz olub. Hamı kimi o da bir ömür yaşayıb! Uğurları da olub, büdrəmələri də, faydalı, dəyərli işləri də olub, nöqsanları da, sevincləri də olub, kədərləri də, gerçəkləşən ümidləri də olub, həyata qovuşmayan arzuları da... Elə işləri, elə niyyətləri, elə mübarizələri, elə gileyləri olub ki, illər onları həmin o qeyri-adi məktubdakı yazılar kimi oxunmaz edib, soldurub-saraldıb, özüylə aparıb, unutdurub.

**Rafael Hüseynov,**
*professor*

“Nərgiz” operasının yaranması Azərbaycanda opera sənətinin inkişafını göstərən və Azərbaycan bəstəkarlarını müasir həyatımızın ən ciddi məsələlərinə və həyati mövzularına müraciət etdiyini nümayiş etdirən canlı bir faktdır. Bu əsərin yaranması göstərdi ki, respublikanın bəstəkarları müasir həyata, zəmanəmizin qəhrəmanlarına, sovet xalqına yaxın olan mövzularda dərin, mənalı, gözəl əsərlər yarada bilərlər.

**Qubad Qasımov,**
*tarix elmləri namizədi*

Müslüm Maqomayev Azərbaycan muğamları ilə nəfəs alırdı və onlarda nə qədər tükənməz yaradıcılıq ehtiyatının cəmləşdiyini yaxşı bilirdi, və o, ustalıqla bu tükənməzlikdən istifadə edib bir-birindən gözəl əsərlər yaradırdı.

**Əlisa Nicat,**
*yazıçı, tarixçi, filosof*

M.Maqomayevin "Nərgiz" operası nəinki Azərbaycanın, habelə bütün sovet incəsənətinin böyük qələbəsidir. "Nərgiz"in musiqisi parlaq melodiyaların sonsuz axınıdır.

**Kərim Kərimov,**
*Xalq artisti*

M.Maqomayev Azərbaycan musiqi mədəniyyətinin inkişafında, ən çətin və mürəkkəb dövrlərində onun ön cəbhəsində dayanan parlaq simalardan biridir. O, Azərbaycan musiqi sənəti tarixinə çoxcəhətli istedada malik sənətkar, müəllim, maarifçi və ictimai xadim kimi daxil olmuşdur.

**Tofiq Quliyev,**
*Xalq artisti, bəstəkar*

Müslüm Maqomayevin "Şah İsmayıl" operası yerli motivlər üzərində, muğamlarımızdan geniş istifadə olunmaqla yazılmışdı. Bu əsər Şərq və Qərbi birləşdirmək yolunda ilk cəhd idi. Operanın tamaşaları çox böyük müvəffəqiyyətlə keçirdi, ancaq buna baxmayaraq müəllif əsərin üzərində ara vermədən işləyir, ariyaları və Şah İsmayılın duetlərini təkmilləşdirirdi.

**Azad Şərif,**
*jurnalist*

Məni opera teatrına aparan məşhur bəstəkarımız Müslüm Maqomayev olmuşdur. O zaman Müslüm bəy teatrın baş direktoru idi. O məni tez-tez teatra dəvət edirdi və operaların bəzi səhnələrində oxuyanları müşayiət etməyi mənə tapşırırdı. Beləliklə, mən muğam operalarını mükəmməl öyrənmişdim.

**Bəhram Mənsurov,**
*Azərbaycan Xalq artisti, tarzən*

*Müslüm Maqomayevin həyat və yaradıcılığı, əsərləri haqqında "Rəy sorğusu"*

Sual? Haqqında söhbət açdığımız Müslüm Maqomayev kimdir və onu necə tanıyırsınız?
Cavab: Müslüm Maqomayev (tam adı: Əbdülmüslüm Məhəmməd oğlu Maqomayev; 18 sentyabr 1885 – 28 iyul 1937) — Azərbaycan bəstəkarı, dirijor, pedaqoq, folklorşünas, ictimai xadim, Azərbaycan klassik musiqisinin təsisçilərindən biri, Azərbaycan musiqisində Avropa stilində ilk operanın müəllifi ("Nərgiz", 1935), Azərbaycanın Əməkdar incəsənət xadimi (1935).

Sual? Müslüm Maqomayev harada və neçənci ildə anadan olmuşdur?
Cavab: Əbdülmüslüm Məhəmməd oğlu Maqomayev 1885-ci il sentyabrın 18-də Qroznı şəhərində mədəniyyəti və proqressiv düşüncələri ilə fərqlənən sadə və zəhmətkeş silah dəmirçisinin ailəsində anadan olmuşdur.

Sual? Müslüm Maqomayevin hansı mahnılarının adlarını sadalaya bilərsiniz?
Cavab: "Yaz", "Neft", "May", "Tarla", "Gözəlim", "Durna".

Sual? Klassik musiqi və səhnə forması üzərində qurulan ilk Azərbaycan operası hansıdır?
Cavab: Maqomaevin "Nərgiz" operası klassik musiqi və səhnə forması üzərində qurulan ilk Azərbaycan operası sayılır.

Sual? Müslüm Maqomayevin hansı simfonik əsərlərinin adlarını sadalaya bilərsiniz?
Cavab: "Azərbaycan çöllərində", "Azad Azərbaycan qadınının rəqsi", "Dərviş", "Azərbaycan radio marşı", "Turacı" rəqsi, "Əsgərani" və s.

Sual? Müslüm Maqomayevin yaradıcılığının mərkəzində hansı janr dayanır?
Cavab: Müslüm Maqomayevin yaradıcılığının əsasını opera janrı təşkil edir.

Sual? Müslüm Maqomayevin hansı operalarının adları sizə məlumdur?
Cavab: "Şah İsmayıl" (1916) və "Nərgiz" (1935) operaları

Sual? Ü.Hacıbəyli və M.Maqomayev yaradıcılığına yüksək qiymət verən görkəmli Azərbaycan bəstəkarı kimdir?
Cavab: Ü. Hacıbəyli və Müslüm Maqomayev yaradıcılığına yüksək qiyməti görkəmli Azərbaycan bəstəkarı Qara Qarayev vermişdir. O deyirdi: "Ü. Hacıbəyli və onun silahdaşı M.Maqomayev Azərbaycan incəsənətində böyük iz qoymuşlar. Hacıbəyli və Maqomayev estafetini Azərbaycan bəstəkarları layiqincə davam etdirirlər".

Sual? Müslüm Maqomayev neçənci ildə və harada haqq dünyasına qovuşmuşdur?

Cavab: Müslüm Maqomayev uzun sürən xəstəlikdən sonra 1937-ci il, iyulun 28-də Nalçikdə vəfat edib. Bakıda Fəxri xiyabanda dəfn olunub.

**Əbədi-bədii gecə.** Müslüm Maqomayev irsinin təbliği üçün ədəbi-bədii gecələrin keçirilməsi zəruridir. Kitabxanaçı əbədi-bədii gecəyə iki ay qabaqcadan hazırlaşmalıdır. Tədbir iki hissədən ibarət olur. Birinci hissədə çıxış və məruzələr dinlənilir. İkinci hissədə isə bəstəkarın xatirələri, mahnı və əsərlərindən parçalar səsləndirilir. Gecəni “Maqomayev planeti” başlığı ilə adlandırmaq olar. Tədbirin ssenarisini sizə təqdim edirik: Tədbirin əvvəlində iştirakçılara Müslüm Maqomayev yaradıcılığından bəhs edən slayd təqdim olunur. Səhnə yazıçının portireti, əsərlərindən ibarət sərgi ilə, yazıçının söylədiyi fikirlər və haqqında yazılmış sitatlarla bəzədilir. Gecəyə onun yaradıcılığına yaxından bələd olan tanınmış




yazıçılar, tənqidçilər, jurnalistlər və kitabsevər oxucular dəvət olunur.

Aparıcılar səhnəyə çıxıb, tədbiri açıq elan edirlər.

**I Aparıcı:** Hörmətli tədbir iştirakçıları! Bu gün istedadlı bəstəkar, milyonların qəlbində özünə yer tapan Müslüm Maqomayevin yubileyində bir araya gəlmişik. Müslüm Maqomayev hər zaman xatırlanan, qəlblərimizdə əbədi yaşayan, dahi şəxsiyyətlərdən biridir.

**II Aparıcı:** Müslüm Maqomayevin ilk iri həcmli musiqi əsəri 1916-cı ildə yazdığı “Şah İsmayıl” operasıdır. O zaman bəstəkar ağlına belə gətirməzdi ki, əsərdəki Aslan şahın

ariyasını çox illər sonra üzünü görmədiyi nəvəsi – dünya şöhrətli müğənni Müslüm Maqomayev ifa edəcək.

"Şah İsmayıl" milli operamızı Avropa operasının texniki cəhətdən inkişaf etmiş formaları ilə əlaqələndirmək baxımından ilk təşəbbüs idi. Bu əsərdə bəstəkar operaya xas ariya, duet, çoxsəsli xor kimi əsas elementlərlə yanaşı, milli folklor nümunələrindən də bacarıqla istifadə etmişdir. İlk tamaşası 1919-cu il martın 7-də nümayiş olunan opera indiyədək təqribən 400 dəfə oynanılıb və çox maraqla izlənilir.
"Şah İsmayıl" operası haqında qısa məlumat verilir.
**I Aparıcı:** "Şah İsmayıl" operasında kütləvi xalq səhnələrinə, eyni zamanda, məzmunun rəngarəngliyinə və səs materialının təşkilinə görə müxtəlif olan xorlara üstünlük verilib. Nümunə olaraq "Baharın gəlməsi" qızlar xorunu, Şah İsmayılın qoşunlarının xorunu, toy xorunu, "Şəlalə" xalq melodiyası əsasında yaradılmış yekun xorunu göstərmək olar.

Dastanda Ədil şah oğlunun sevdiyi qızın – Gülzarın dalınca Qəndəhardan uzaqlardakı Türkman elinə getməsinə razılıq və xeyir-dua verir. Operada ənənəvi xəyanətkar vəzir fırıldaqçı qoca Rəmmalla birləşərək, Aslan şahı aldadırlar ki, sənin başının bəlası öz oğlun İsmayıldır və başının salamatlığı üçün sən onu gedər-gəlməzə göndərməlisən. Aslan şah oğlunu çağırıb hansısa düşməninin başını gətirməyi əmr edir və onu yola salır.
**II Aparıcı:** Dastanda şahzadə İsmayıl uzaq səfərdən üç gözəl gətirir: Gülzar, Rəmmal Pəri və gözəllikdə bu ikisindən heç də geri qalmayan igid Ərəb Zəngi.

Operada qızlarla qayıtmış İsmayıldan atası Aslan şah düşməninin başını tələb edir və guya hökmü yerinə yetirmədiyi

üçün əvvəlcə onun edam olunmasına, sonra isə rəhmə gələrək, gözlərinin çıxarılması yolu ilə kor edilməsinə fərman verir.

Dastanda İsmayılın gözlərini çıxarıb ovcuna qoyurlar, özünü də quyuya salıb orada saxlayırlar. Bir yolçu onu quyudan çıxarır və quşların məlum köməyilə gözlərini yerinə qoyub sağaldır. İsmayıl atasının ordusu ilə vuruşan Ərəb Zəngiyə köməyə gəlir və onlar qalib gələrək, Ədil şahı öldürməyə nail olurlar. Və dastanda qeyd edilir ki, xalq İsmayılı şah seçib taxta oturdur.

**I Aparıcı:** Müslüm Maqomayevin bütün əsərləri zəngin fikirlərlə və düşündürücü məqamlarla doludur. Müslüm Maqomayev yaradıcılığında bir-birindən maraqlı və vacib məqamları görmək və onu dərk etmək çox önəmli və olduqca məsuliyyətli bir işdir. Maqomayevin əsərləri Azərbaycan xalqının musiqi məişətinə orqanik şəkildə daxil olmuşdur. İstedadlı bəstəkarın fədakar yaradıcılıq həyatı, axtarışları, tapıntıları Azərbaycan musiqi mədəniyyətinə dəyərli töhfələridir.

## Ədəbiyyat siyahısı


### *Kitablar*

**Hüseynova A.** Müslüm Maqomayev :Oçerklər - Bakı : Çinar-çap, 2003. - 92 s.

**Müslüm Maqomayev** : Biblioqrafiya - Bakı : M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2011. - 168 s. - (Azərbaycanın görkəmli şəxsiyyətləri). - Azərbaycan və rus dillərində.

### *Dövri mətbuatda*

**Anar.** Sadəliyi dərketmə : [musiqi tarixində əvəzsiz rolu olan bəstəkarlar] / Anar // Qobustan. - 2017. - **№ 3**. - S. 6-13.

**Ənvəroğlu V.** Sentyabrın ötəsi. Dünyaya kimlər gəlib, kimlər gedib : İnsan çeşniləri // Qobustan. - 2015. - **№ 3**. - S. 77-78.

**Həsənova T.** Oxşar taleli bəstəkarlar : Üzeyir Hacıbəyov və Müslüm Maqomayevin adları xalqımızın mədəniyyət tarixinə əbədi həkk olunub // Kaspi. - 2016. - 17-19 sentyabr. - № 146. - S. 7.

**Hümbətova A.** Azərbaycan xalq mahnılarının bəstəkar yaradıcılığında təzahür formaları / A. Hümbətova // Mədəniyyət.az. - 2018. - **№ 320**. - S. 53-55.

**Köçərli İ.** Musiqi dolu həyat : Müslüm Maqomayev - 130 // Azərbaycan. - 2015. - 18 sentyabr. - **№ 204**. - S. 11.

**Qafarova Z.** Azərbaycan professional musiqisinin klassiki : görkəmli bəstəkar Müslüm Maqomayevin 130 illiyinə // Mədəniyyət. - 2015. - 18 sentyabr. - **№ 72**. - S. 12.

# Əbədiyaşar bəstəkar – Müslüm Maqomayev

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 17
Çapa imzalanmışdır: 28.03.2019
Tirajı:100
Pulsuz